AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycandakı dini icmaların rəhbərləri Parlamentlərarası Pravoslav Assambleyasına etiraz məktubu ünvanlayıblar

Azərbaycanda fəaliyyət göstərən qeyri-islam dini icmaların rəhbərləri Parlamentlərarası Pravoslav Assambleyasının (PPA) 23-cü illik toplantısının iştirakçıları tərəfindən qəbul olunan "Fundamental Qlobal Təhdidlər - Xristian Pravoslav Perspektivi" adlı qətnamənin sonuncu bəndinə - Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan və aprel döyüşləri ilə bağlı tamamilə yanlış məlumatı özündə əks etdirən müddəa ilə bağlı etiraz məktubu ünvanlayıblar.

AZƏRTAC-a daxil olan məktubda deyilir:

*"Parlamentlərarası Pravoslav Assambleyasına*

*Parlamentlərarası Pravoslav Assambleyasının hörmətli üzvləri!*

*Parlamentlərarası Pravoslav Assambleyasının bu il iyulun 4-8-də Yunanıstanın Soloniki şəhərində keçirilən 23-cü illik toplantısında qəbul olunan "Fundamental Qlobal Təhdidlər - Xristian Pravoslav Perspektivi" adlı qətnamə müasir dünyanın, xüsusilə də Avropanın taleyi üçün əhəmiyyətli və həssas məsələlərə toxunsa da, təəssüf ki, qətnamədə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müddəalar reallıqdan və obyektivlikdən uzaqdır.*

*Nəzərinizə çatdırırıq ki, Azərbaycanda tarix boyu müxtəlif dinlərin və millətlərin nümayəndələri bir ailə kimi dinc yanaşı yaşamışlar. Təsadüfi deyil ki, Azərbaycanda mövcud olan dini tolerantlıq və mədəniyyətlərarası dialoq mühiti, həmçinin bu istiqamətdə Azərbaycan hökumətinin həyata keçirdiyi ardıcıl siyasət bu gün bütün dünyada örnək olaraq qəbul edilməkdədir. Azərbaycanda dözümlülüyün və dialoqun qorunması istiqamətindəki siyasətin tərkib hissəsi olaraq dini mənsubiyyətindən asılı olmayaraq bütün dini icmalara dövlət tərəfindən xüsusi diqqət göstərilir. Təsadüfi deyildir ki, təkcə bu il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qeyri-müsəlman dini icmalara 800 min manat (516 000 dollar), o cümlədən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasına 250 min manat (161 000 dollar) vəsait ayrılıb. Həmçinin maddi və mənəvi irsə olan ənənəvi hörmətin göstəricisi kimi müsəlman məscidlərinin, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların inşası və təmir işlərinə dövlət tərəfindən qayğı ilə yanaşılır.*

*Milli və dini zəmində münaqişələrin artdığı bir dövrdə əsrlər boyu tolerantlığı ilə nümunəvi olan Azərbaycan tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlar keçirməklə, habelə beynəlxalq qurumların toplantılarına ev sahibliyi etməklə beynəlxalq aləmə öz töhfələrini verib. Azərbaycanda son illərdə dünya dini liderlərinin zirvə görüşü, mədəniyyətlərarası dialoq və Bakı beynəlxalq humanitar forumları, dünya dini liderlərinin sammiti, "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda konfrans, Mədəniyyətlərarası Dialoq Forumu, "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" devizi altında İİ Dünya Mədəniyyətlərarası Dialoq Forumu, İİİ Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" mövzusunda VİÍ Qlobal Forumunun Bakıda keçirilməsi Azərbaycan dövlətinin beynəlxalq nüfuzundan xəbər verir.*

*Dinlərarası münasibətlərdə böhran yaşayan, islamofobiya, ksenefobiya, antisemitizm hallarının artdığı dünyamızda Azərbaycan hökuməti nəinki öz torpağında, həmçinin ölkə xaricində müxtəlif dinlər üçün xüsusi tarixi, mənəvi əhəmiyyəti olan abidələrin bərpasına və inşasına diqqət ayırır. Bu baxımdan Fransa regionlarında kilsələrin, müqəddəs Roma katakombalarının bərpası, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılmasını nümunəvi hal kimi göstərmək olar.*

*Məlumdur ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunub, 1 milyondan çox azərbaycanlı öz doğma yurdlarından qaçqın və köçkün düşüb. Hərbi təcavüz nəticəsində təxminən 403 tarixi-dini abidə erməni işğalı altında qalıb. Milli, dini ənənəni özündə daşıyan bu abidələr ermənilər tərəfindən məhv edilir, tarixi alban məbədləri isə erməniləşdirilir, qriqoryanlaşdırılır.*

*Bütün bunlara baxmayaraq, Bakının mərkəzində yerləşən erməni kilsəsinin Azərbaycan dövlətinin mühafizəsi altında olması təqdirəlayiq haldır.*

*Təəssüf ki, Ermənistan tərəfindən münaqişə tarixi boyu törədilmiş insanlığa zidd əməllər və vandalizm bu ilin aprel ayında yenidən təkrarlanıb. Ermənistanın təcavüzkar olması və qoşunlarının Azərbaycan ərazisindən təcili çıxarılması ilə bağlı BMT qətnamələrinə, habelə ATƏT-in Minsk qrupunun bəyanatlarına və Avropa Şurasının rəsmi sənədlərinə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin törətdikləri fitnəkar təxribat nəticəsində bu ilin aprel ayının əvvəllində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində baş verən döyüşlərdə (01-05.04.2016) yüzlərlə insan, o cümlədən mülki şəxslər həlak olub, Azərbaycanın Ağdam və Tərtər rayonlarının ərazilərində bir çox tikililərlə yanaşı, XİX əsrə aid tarixi-dini abidələr də erməni vandalizminə məruz qalıb, bəzi məscidlərə ciddi ziyan dəyib. Ağdam rayonunun Xındırıstan, Əhmədağalı və Zəngişalı kənd məscidlərinin divarlarında böyük çatlar əmələ gəlib. Tərtər şəhər "Cümə" məscidinin ətrafına erməni silahlıları tərəfindən atılan top mərmiləri məscidin bir tərəfinin divarlarında çatlar yaradıb.*

*Hörmətli Assambleya üzvləri!*

*Biz dini konfessiyaların, dini liderlərin və dini qurumların sülh və qardaşlıq naminə bir araya gəlmələrini qiymətləndirir, lakin Parlamentlərarası Pravoslav Assambleyasının "Fundamental Qlobal Təhdidlər - Xristian Pravoslav Perspektivi" adlı qətnaməsinə hansısa tərəfin maraqlarından çıxış edərək, Dağlıq Qarabağ barəsində düzgün olmayan, təxribat xarakterli müddəanın əlavə edilməsini Parlamentlərarası Pravoslav Assambleyasının xristianlıq və demokratiya prinsipləri və dəyərləri üzərində qurulan hədəflərinə zidd olduğunu düşünürük.*

*Odur ki, biz baş verən hadisələrin, eyni zamanda, Azərbaycan dövlətinin apardığı siyasətin şahidi kimi sizi qərəzsiz və düzgün mövqe nümayiş etdirməyə, ədalətin bərpası üçün səy göstərməyə çağırırıq.*

*Hörmətlə,*

***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu***
***Aleksandr Ata***

***Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri***
***Milix Yevdayev***

***Azərbaycan Respublikasının Alban-Udi Xristian icmasının sədri***
***Robert Mobili***

***Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturasının ordinarisi***
***Vladimir Fekete***

***"Həyat sözü" Xristian dini icmasının sədri***
***Rasim Xəlilov***

***Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının sədri***
***Yəhya Məmmədov***

***Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının sədri***
***Vera Nesterova***

***"Yeni Həyat" Xristian incil dini icmasının sədri***
***Lyudmila İbrahimova".***

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, məsələ ilə əlaqədar hazırda Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri tərəfindən müvafiq işlər aparılır.